**RESPUBLİKA ELMİ TƏDQİQATLARIN ƏLAQƏLƏNDİRİLMƏSİ ŞURASI**

| | |
|---|---|
| ***Təşkilatın adı*** | Azərbaycan Respublikası Səhiyyə Nazirliyi<br>Azərbaycan Tibb Universiteti |
| ***Sənədin növü*** | Tibb üzrə fəlsəfə doktoru elmi dərəcəsi adını almaq üçün Dissertasiya işinin<br>ANNOTASİYASI |
| ***Tədqiqat işinin adı*** | Hərbi lisey kursantlarının qidalanma statusu və sağlamlığı arasındakı əlaqələrin gigiyenik qiymətləndirilməsi |
| ***Tədqiqat mövzusunun aid olduğu elmi problemin adı*** | Əhali sağlamlığının formalaşmasının sosial-gigiyenik və ekoloji əsasları |
| ***Qeydiyyata alındığı Elmi Şuranın adı*** | ***ATU Elmi şurası*** |
| ***Qeydiyyat tarixi*** | 25.02.2019 |
| ***Etika Komissiyasının qərarı*** | 3240.01 |
| | Gigiyena |
| ***İxtisas şifri*** | 3240.01 |
| ***İxtisasın adı*** | Gigiyena |
| ***İcarçının statusu*** | Doktorant |
| ***İcraçı*** | Azərbaycan Tibb Universitetinin Ümumi gigiyena və ekologiya kafedrasının doktorantı<br>Ağasiyeva Aylin Yaqub qızı |
| ***Təvəllüdü*** | 22.07.1989 |
| ***Cinsi*** | Qadın |
| ***İş yeri və vəzifəsi*** | Müdafiə Nazirliyinin Sanitar Epidemioloji Nəzarət Mərkəzinin Sanitariya-gigiyena bölməsinin Əməyin gigiyenası, sanitariya-toksikoloji və radioloji laboratoriyasının rəisi |
| ***Əlaqə*** | e-mail: aylinagasiyeva@gmail.com |
| ***Elmi rəhbər*** | Azərbaycan Tibb Universitetinin Ümumi gigiyena və ekologiya kafedrasının müdiri, t.e.d.,professor<br>Kazımov Mirzə Ağababa oğlu |
| ***Elmi məsləhətçi*** | |
| ***Sponsor*** | |
| ***Tədiqiatın yerinə*** | |

| | |
|---|---|
| ***yetiriləcəyi yerli təşkilat*** | Cəmşid Naxçıvanski adına Hərbi Lisey |
| ***Tədiqiatın yerinə yetiriləcəyi xarici təşkilat (lar)*** | |
| ***Şəhər və il*** | Bakı, 2019 |
| ***Koordinasiya şurasına ilkin və sonrakı müraciət tarixi*** | |
| ***AMEA qeydiyyat nömrəsi*** | N 141 |
| ***Qeydiyyat tarixi*** | |
| ***Müdafiə tarixi*** | |
| ***Tədqiqatın sahəsi və istiqaməti*** | |

# TƏDQİQATIN MƏZMUNU

| | |
|---|---|
| ***İşin adı*** | Hərbi lisey kursantlarının qidalanma statusu və sağlamlığı arasındakı əlaqələrin gigiyenik qiymətləndirilməsi |
| ***İşin abstraktı*** | Hərbi lisey kursantlarının sağlamlıq vəziyyətinin öyrənilməsinə aid tədqiqatların olmamasını, lakin ölkənin müdafiə qabiliyyətinin təmin edilməsində mühüm rol oynayan bu əhali qrupunun sağlamlığının formalaşmasında qidalanma amilinin aparıcı rolunu nəzərə alaraq onların qidalanma statusu ilə sağlamlığı arasındakı əlaqələrin tədqiqi işin əsas ideyasını təşkil edir. |
| ***Problem*** | Əhali sağlamlığının formalaşmasının sosial-gigiyenik və ekoloji əsasları |
| ***Məqsəd*** | Hərbi lisey kursantlarının qidalanma statusu və sağlamlığı arasındakı əlaqələrin gigiyenik qiymətləndirilməsi əsasında onların qidalanmasının optimallaşdırılması və sağlamlığının adekvat vəziyyətinin təmin edilməsi istiqamətində profilaktik tədbirlərin elmi əsaslarının işlənib hazırlanması |
| ***Material və metodlar – (xəstə qrupları və müdaxilələr/proseduralar)*** | - C.Naxçıvanski adına hərbi lisey kursantları;<br>- hərbi lisey kursantlarının qidalanma, fiziki inkişaf və sağlamlıq vəziyyətini öyrənmək üçün tərtib edilmiş sorğu anketləri;<br>- hərbi lisey kursantlarının xəstələnmə göstəricilərini əks etdirən məlumatlar;<br>- hərbi lisey kursantlarının fiziki inkişafının, ürək-damar, tənəffüs və digər funksional sistemlərin vəziyyətinin tədqiqinin nəticələri. |
| ***Əsas qiymətləndirmə kriteriyası və onun ölçmə metodu*** | Əsas qruplar – C.Naxçıvanski adına hərbi lisey kursantları, müqayisə qrupları –mövcud normativ materiallar<br>Tədqiqat üsulları:<br>Epidemioloji (ayrı-ayrı xəstəliklərin kursantlar arasında yayılması), gigiyenik, analitik, statistik |
| ***Əlavə qiymətləndirmə kriteriyaları və onların ölçmə metodları*** | Tədqiqatlardan alınan nəticələrin gigiyenik qiymətləndirilməsi materialın müvafiq yaşa və cinsə görə mövcud gigiyenik, antropoloji və fizioloji normalarla müqayisəsi əsasında həyata keçiriləcəkdir |
| ***Açar sözlər*** | Hərbi lisey kursantlarının qidalanma statusu, sağlamlıq vəziyyəti, fiziki inkişafı, gigiyenik qiymətləndirmə |
| ***Obyektinə görə işin növü*** | **Təcrübi** |

| | |
|---|---|
| ***Məqsədinə görə işin növü*** | |
| ***Vaxta görə işin növü*** | **Prospektiv** |
| ***Klinik tədqiqatın modeli*** | |
| ***Randomizasiya üsulu*** | Olmayacaq |
| | |
| ***Obyekt – xəstələr (material)*** | C.Naxçıvanski adına hərbi lisey kursantları |
| ***Daxil etmə kriteriyaları*** | |
| ***Çıxarma kriteriyaları*** | |
| ***Müdaxilənin növü*** | |
| ***Müdaxilənin açıqlaması*** | |
| ***Statistik və riyazi işləmlər*** | Tədqiqatlardan alınan məlumatlar sanitariya statistikasında geniş tətbiq edilən üsullarla işləniləcək. Bu zaman orta kəmiyyətlər, orta kəmiyyətlərin orta xətası, Styudentin dürüstlük əmsalı, orta kvadratik fərqlənmə, korrelyasiya əmsalı və s. göstəricilər təyin ediləcəkdir. |
| ***Aktuallığı*** | Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən "Ətraf mühit və uşaqların sağlamlığı" mövzusunda qəbul edilmiş Avropa Fəaliyyət Planında ÜST-nın Avropa Regional Bürosunun üzvü olan ölkələrdə uşaqların sağlamlığının qorunub saxlanması istiqamətində problemin hələ də qalması və onun həllinin vacibliyi qeyd edilmişdir. Bu kontekstdə Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2014-cü il tarixli Sərəncamı ilə "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir.<br>Məlumdur ki, inkişaf etməkdə olan uşaq orqanizmi yaşayış mühiti və şəraitinin müxtəlif xarakterli amillərinin təsirinə yüksək həssaslığına görə risk qruplarına daxil edilir [Бекетова Н.А. и соавт.,2015; Вржесинская О.А. и соавт.,2018]. Orta təhsil alma dövründə uşaq orqanizminin zərərli təsirlərə məruz qalması onun həyat fəaliyyətinin və sağlamlığının pozulmasına, bir sıra orqan və sistemlərin (mədə-bağırsaq, tənəffüs, qan-damar, qanyaranma, endokrin, sinir, sümük-əzələ sistemlərin) xəstəliklərinə və fiziki inkişafdan geri qalmalara gətirib çıxara bilər [ Кучма В.Р., 2014; Мельникова М.М., 2014].<br>Statistik məlumatlara görə bəzi ölkələrdə son onilliklərdə məktəblilərin sağlamlıq göstəricilərində mənfi |

| | |
|---|---|
| | meylliklərin rastgəlmə tezliyinin artması qeyd edilir. Qeyd edilir ki, bu meylliklər ilk növbədə patologiyaönü vəziyyətlər şəklində meydana çıxır [Баранов А.А. и соавт.,2013; Евдокимов В.И. и соавт.,2018].<br>Müasir dövrdə uşaq və yeniyetmələrin orqanizminə əlverişsiz təsir edə bilən yaşayış mühiti amilləri sırasında tədris prosesi mühüm rol oynayır. Xüsusən yeniyetməlik dövründə uşaqların peşə seçməsi ilə əlaqədar müxtəlif yönümlü məktəb və liseylərdə təhsil almaları zamanı həmin təhsil müəssisəsində tədris şəraitinin təşkili, tədris proqramlarının xüsusiyyətləri, uşaqların əmək, istirahət və məişət şəraitlərinin müxtəlifliyi, bir çox hallarda isə əlverişsiz olması ilə yanaşı şagirdlərin yaşına uyğun olmaması onların sağlamlığına zərərli təsir ehtimalını artırır [Шумских Д.С. и соавт.,2013]. Bu baxımdan hərbçi ixtisasını seçən yeniyetmələrin orta təhsil dövründə hərbi liseylərdə təhsil almağa üstünlük verməsi bir tərəfdən ölkənin müdafiə qüdrətinin yüksəldilməsi baxımından çox müsbət hal kimi qiymətləndirilsə də, bu təhsil müəssisələrində təlim-tərbiyə proseslərinin orta ümumtəhsil müəssisələrindən ciddi şəkildə fərqlənməsi onların sağlamlığına əlverişsiz təsir də göstərə bilər [Адашкевич А. А., 2016; Gutowska I. T. Et al. 2014; Ширко Д. И. и соавт.,2017].<br>Hərbi yönümlü orta ixtisas məktəblərinin spesifikliyi kursantların dəyişən ətraf mühit amillərinin, sosial və məişət şəraitlərinin, habelə tədrisin və hərbi hazırlığın xüsusiyyətlərinə və rejiminə adaptasiyasının vacibliyilə xarakterizə olunur [Рахманов Р.С. и соавт.,2014]. Bu amillərin yeniyetmələrin sağlamlıq vəziyyətinə təsirinin öyrənilməsi istiqamətində aparılan tədqiqatlar göstərir ki, bu tədris müəssisələrində təhsil alanlar arasında müxtəlif patoloji və patologiyaönü vəziyyətlərin formalaşmasında müəyyən rol oynayan əsas risk amilləri içərisində tamdəyərli səmərəli qidalanmanın təşkilində müvafiq sanitariya-gigiyena qaydalarına əməl edilməməsinə daha çox diqqət yetirilir [Дорошевич В.И. и соавт.,2011; Онищенко Г.Г.,2012].<br>Uşaq və yeniyetməlik dövründə səmərəli qidalanma xəstəliklərin qarşısının alınmasını, uşağın dərsoxuma və işgörmə qabiliyyətinin yüksəlməsini, fiziki və əqli |

| | |
|---|---|
| | inkişafını təmin edir, yaşayış mühiti amillərinin təsirinə adaptasiya olunması üçün şərait yaradır [Буря Е.Ю. и соавт., 2012; Дерин, В.Н., 2013; Коршевер Н.Г. и соавт., 2011]. Hesab edilir ki, hərbi tədris müəssisələrində kursantların sağlamlığı, fiziki inkişafı, fiziki hazırlığı və döyüş qabiliyyətinin mənimsənilmə səviyyəsi keyfiyyətli qidalanmadan birbaşa asılıdır [Кукоз Г.В., 2012;]. Hərbi peşəyə yiyələnmək istiqamətində təhsil alan yeniyetmələrin sağlamlığının qorunub saxlanması və möhkəmləndirilməsi, bu sahədə səmərəli qidalanmanın mühüm bir gigiyenik problem kimi hər bir dövlət üçün strateji əhəmiyyət daşımasına baxmayaraq, onun tədqiqinin kifayət səviyyədə olmadığı qeyd edilir [Царяпкин В.Е., 2013]. Hərbi tədris müəssisələri kursantlarının qidalanma xüsusiyyətləri və bununla əlaqədar onların sağlamlıq vəziyyətini əks etdirən fiziki inkişaf və xəstələnmə göstəriciləri haqqında respublikamızda da elmi tədqiqatlara aid məlumatlar əldə etmək mümkün olmamışdır. Bu problemin həlli istiqamətdə tədqiqatların indiki zamanda bizim respublikamız üçün aktuallığı və vacibliyi hərbi lisey kursantları arasında aparılması nəzərdə tutulan hazırki tədqiqat işinin məqsəd və vəzifələrini müəyyən etmişdir. |
| ***Vəzifələr*** | 1) hərbi lisey kursantlarının tədris və qidalanma şəraitlərinin və xüsusiyyətlərinin tədqiqi, sağlamlıq üçün prioritet risk amillərinin müəyyən edilməsi və gigiyenik qiymətləndirilməsi;<br>2) hərbi lisey kursantlarının fiziki inkişaf göstəricilərinin təyin edilməsi və gigiyenik qiymətləndirilməsi;<br>3) hərbi lisey kursantlarının xəstələnmə göstəricilərinin öyrənilməsi və təhlil edilməsi;<br>4) hərbi lisey kursantlarının sağlamlığının qorunub sağlanması və optimal fiziki inkişafının təmin edilməsi üçün gigiyenik təkliflərin işlənib hazırlanması |
| ***Orijinallıq (yeniliyi)*** | Tədqiqatların yerinə yetirilməsi ilk dəfə respublikada hərbi lisey kursantlarının qidalanma statusunun xüsusiyyətlərinin, qidalanmasının səmərəli olub-olmaması, gündəlik qida rasionunun kəmiyyət və |

| | |
|---|---|
| | keyfiyyət göstəricilərinin müəyyən edilməsinə imkan verəcəkdir.<br>Hərbi lisey kursantlarının qidalanmasının rejimlə olub-olmaması, sutkalıq rasionun istər qida maddələrinin miqdarına, istərsə də enerji tutumuna görə günün vaxtlarına uyğun bölüşdürülməsi və eyni zamanda orqanizminin enerjiyə və əsas qida maddələrinə olan fizioloji tələbatını ödəyə bilmə məsələləri ilk dəfə bu tədqiqatlarda aydınlaşdırılacaqdır.<br>Kimyəvi tərkibinə görə sutkalıq qida rasionunun orqanizmin tələbatına müvafiqliyinin, qidanın tərkib göstəricilərilə orqanizmin funksional fəaliyyətinin, xəstələnmələrin səviyyəsinin və fiziki inkişafın qarşılıqlı əlaqələrinin ilk dəfə aşkar edilməsi planlaşdırılan tədqiqatların nəticələrində gözlənilən elmi yeniliklərdən hesab edilə bilər. |
| ***Gözlənilən nəticələr və onların elmi-praktik əhəmiyyəti*** | Tibb üzrə fəlsəfə doktoru elmi dərəcəsi adı almaq üçün dissertasiya, elmi məqalələr,<br>Elmi surətdə əsaslandırılmış və tələbələrin sağlamlığının mühafizəsinə yönəlmiş kompleks profilaktik tədbirlər<br>Planlaşdırılan tədqiqatların yerinə yetirilməsi hərbi lisey kursantlarının tədris-məişət şəraitlərinin onların sağlamlığına və fiziki inkişafına təsir edən mümkün risk amillərinin və "mühit amilləri – mütəşəkkil kollektivdə kursantların sağlamlıq vəziyyəti" sistemində səbəb-nəticə əlaqələrinin aşkar edilməsinə imkan verməklə yanaşı, tədqiqatlar nəticəsində müəyyən edilmiş risk amillərinin aradan qaldırılması, habelə kursantların qida rasionunun optimallaşdırılması istiqamətində profilaktik tədbirlərin elmi əsaslarının işlənib hazırlanmasını təmin edəcəkdir. |
| ***Maddi və texniki imkanlar*** | Tədqiqatlar Ümumi gigiyena və ekologiya kafedrasının elmi proqramının büdcədən maliyyələşməsi hesabına yerinə yetiriləcəkdir. |
| ***Tədqiqatın yerinə yetririləcəsyi yer*** | Cəmşid Naxçıvanski adına Hərbi Lisey<br>Azərbaycan Tibb Universiteti |
| ***İşin başlama vaxtı*** | 2019 |
| ***İşin bitirmə vaxtı*** | 2023 |
| ***İşin müddəti*** | 4 il |

| | |
|---|---|
| ***İşin mərhələləri*** | **2019 - cu il**<br>1. Problemin hazırki vəziyyətinin öyrənilməsi, mövzunun aktuallığının müəyyən edilməsi və tədqiqat üsullarının seçilməsi üçün ədəbiyyat məlumatları üzərində iş.<br>2. Dissertasiya işində tətbiq edilən tədqiqat üsullarının seçilməsi, aprobasiyası və tədqiqatlara hazırlanması.<br>3. Hərbi lisey kursantlarının qidalanma və sağlamlıq xüsusiyyətlərinin öyrənilməsi, müvafiq sorğu materiallarının toplanması.<br>**2020 - ci il**<br>1. Əldə edilən materialların statistik işlənməsi və təhlil edilməsi.<br>2. Əldə edilən materiallara aid elmi məqalələrin hazırlanması.<br>3. Mövzuya aid ədəbiyyat məlumatları üzərində işin davam etdirilməsi.<br>4. Fəlsəfə doktorluğu minimumlarına aid dərslərdə iştirak edilməsi.<br>**2021 - ci il**<br>1. Hərbi lisey kursantlarının fiziki inkişaf göstəricilərinin öyrənilməsi, materialın statistik işlənməsi, təhlili.<br>2. Elmi məqalələrin yazılması.<br>3. Mövzuya aid ədəbiyyat məlumatları üzərində işin davam etdirilməsi.<br>4. Fəlsəfə doktorluğu imtahanlarının verilməsi<br>**2022 - ci il**<br>1. Hərbi lisey kursantlarının sağlamlıq vəziyyətinin öyrənilməsi işinin davam etdirilməsi.<br>2. Dissertasiyanın yazılması, aprobasiyaya hazırlanması və müdafiəsi. |
| ***Ədəbiyyat*** | 1. Адашкевич А.А., "Белковая и витаминная обеспеченность военнослужащих срочной службы", 70-я Международная научно-практическая конференция студентов и молодых учѐных "Актуальные проблемы современной медицины и фармации" – 2016, стр. 372-377<br>2. Баранов А.А. и соавт., Достойное прошлое, ответственное будущее, Вопросы современной педиатрии, 2013, Том 12, № 4, стр. 6-11<br>3. Бекетова Н.А. и соавт., Current approaches to |

diagnosing and treating eosinophilic granulomatosis with polyangiitis: The 2015 international guidelines, 2015, стр. 86-92

4. Буря Е.Ю. и соавт., Гигиеническая оценка условий обучения и состояния здоровья учащихся 6-11 классов сельских школ, Диссертация, 2013
5. Вржесинская О.А. и соавт., Экскреция водорастворимых витаминов (с, в1, в2 и в6) с мочой у здоровых детей дошкольного и школьного возраста: одномоментное исследование, Вопросы современной педиатрии, 2018, стр. 70-75,
6. Дорошевич В. И., Ширко Д. И., Статус питания и состояние здоровья молодых мужчин // Труды всероссийской научно-практической конференции. «Здоровье — основа человеческого потенциала — проблемы и пути их решения»., 2011, Т. 8, № 1., стр. 372-373
7. Евдокимов В.И., Сиващенко П.П. (2003–2018 гг.), Сравнительный анализ медико-статистических показателей заболеваемости военнослужащих по контракту военно-морского флота и сухопутных войск России, Медико-биологические и социально-психологические проблемы безопасности в чрезвычайных ситуациях, 2019, № 4, стр. 35-62
8. Кучма В.Р., Формирование здорового образа жизни детей и единого профилактического пространства в образовательных организациях: проблемы и пути решения, ЖУРНАЛ: Гигиена и санитария, 2015, 94 (№ 6), стр. 20-25
9. Кукоз Г.В., Гигиеническое обоснование совершенствования лечебного питания военнослужащих с недостаточной массой тела в военных лечебно-профилактических учреждениях, 2012, Диссертация
10. Коршевер Н.Г. Сидельников С.А., Исследование детерминант здоровья и влияния на них заинтересованных секторов, Медицинский вестник Башкортостана, 2013, Том 8, № 1, стр. 9-12
11. Шумских Д.С., Рахманов Р.С., Оценка успеваемости лиц организованного коллектива с различным типом нервной системы, Здравоохранение

| | |
|---|---|
| | Российской Федерации., 2013., № 5, стр. 35-37<br>12. Дерин, В. Н., Гигиеническая оценка адаптации военнослужащих к условиям военно-профессиональной деятельности в учебной бригаде, 2013, Диссертация<br>13. , Воронина, Н.Ф., Современное представление о человеческом потенциале. Сегодня и завтра Российской экономики, 2017, № 81-82, стр. 71-77<br>14. Мельникова М.М., Несбалансированное питание как фактор риска развития алиментарно-зависимых заболеваний, Science for Education Today, 2014, №1 стр.17<br>15. Онищенко Г.Г., Объединение усилий в борьбе с эпидемиями — приоритетная задача сотрудничества России и Казахстана, Журнал: Гигиена и санитария, 2012, №3, стр. 4-7<br>16. Рахманов Р.С., Царяпкин В.Е., Блинова, Т.В., Страхова Л.А., Аверкин Д.А., Витаминно-минеральная недостаточность организма как биомаркер здоровья спортсменов., Наука: комплексные проблемы, (2014, №1, стр. 25-29<br>17. Ширко, Д.И., Дорошевич, В.И., Мощик, К.В., Трунин, М. В., Состояние здоровья летного состава по статусу питания., Военная медицина, 201, № 3., стр. 80-83<br>18. Рахманов Р.С., Блинова Т.В., Страхова Л.А., Царяпкин В.Е., Генрих К.Р., Орлов Е.В., Витаминно-минеральная недостаточность организма как биомаркер здоровья спортсменов, Журнал: Здоровье – основа человеческого потенциала: проблемы и пути их решения, 2013, 93 №2, стр 809-812<br>19. D Gutowska-Owsiak, M Salimi, T A Selvakumar, X Wang, S Taylor, G S Ogg, Histamine exerts multiple effects on expression of genes associated with epidermal barrier function, 2014, J Investig Allergol Clin Immunol? 2014; 24 (4), p. 231-239. |
| ***Tədqiqatın hazırkı vəziyyəti*** | Tədqiqatlar davam edir |
| ***İşlə əlaqədar çap olunan*** | Kazımov, M. A., & Ağasiyeva, A. Y. (2020). Hərbi lisey |

| | |
|---|---|
| ***məqalələr*** | kursantlarının bəzi adaptasiya göstəriciləri . Azərbaycan Tibb Jurnalı (Xüsusi buraxılış), 141-145.<br>Kazımov, M. A., & Ağasiyeva, A. Y. (2020). Yeniyetmələrin bədən kütləsi və boy ölçülərinə görə fiziki inkişaf səviyyəsinin gigiyenik qiymətləndirilməsi. Milli Təhlükəsizlik və Hərbi Elmlər Elmi-praktik jurnal, 6(3), 64-69.<br>Kazımov, M., & Ağasiyeva, A. (2020). Hərbi məktəblərdə tədrisin təşkilinin spesifik xüsusiyyətləri və gigyenik qiymətləndirilməsi. Sağlamlıq Elmi-praktik jurnal, 1, 12-15.<br><br>Ağasiyeva, A. Y. (2021). Peşə liseyi kursantlarının fiziki inkişafı barədə. Azərbaycan Tibb Universitetinin 90 illik yubileyinə həsr olunmuş "Sağlam əmək və həyat təhlükəsizliyi- 2021" mövzusunda elmi-praktik konfransın materiallarının toplusu. |
| | |
| ***Abstrakt(Azərbaycanca)*** | Hərbi lisey kursantlarının sağlamlıq vəziyyətinin öyrənilməsinə aid tədqiqatların olmamasını, lakin ölkənin müdafiə qabiliyyətinin təmin edilməsində mühüm rol oynayan bu əhali qrupunun sağlamlığının formalaşmasında qidalanma amilinin aparıcı rolunu nəzərə alaraq onların qidalanma statusu ilə sağlamlığı arasındakı əlaqələrin tədqiqi işin əsas ideyasını təşkil edir. |
| ***İşin adı:*** | Hərbi lisey kursantlarının qidalanma statusu və sağlamlığı arasındakı əlaqələrin gigiyenik xarakteristikası |
| ***Problem*** | Əhali sağlamlığının formalaşmasının sosial-gigiyenik və ekoloji əsasları |
| ***Məqsəd*** | Hərbi lisey kursantlarının qidalanma statusu və sağlamlığı arasındakı əlaqələrin gigiyenik qiymətləndirilməsi əsasında onların qidalanmasının optimallaşdırılması və sağlamlığının adekvat vəziyyətinin təmin edilməsi istiqamətində profilaktik tədbirlərin elmi əsaslarının işlənib hazırlanması |
| ***Material və metodlar*** | - C.Naxçıvanski adına hərbi lisey kursantları;<br>- hərbi lisey kursantlarının qidalanma, fiziki inkişaf və sağlamlıq vəziyyətini öyrənmək üçün tərtib edilmiş sorğu |

| | |
|---|---|
| | anketləri;<br>- hərbi lisey kursantlarının xəstələnmə göstəricilərini əks etdirən məlumatlar;<br>- hərbi lisey kursantlarının fiziki inkişafının, ürək-damar, tənəffüs və digər funksional sistemlərin vəziyyətinin tədqiqinin nəticələri. |
| ***Əsas qiymətləndirmə kriteriyaları:*** | Əsas qruplar – C.Naxçıvanski adına hərbi lisey kursantları, müqayisə qrupları –mövcud normativ materiallar |
| ***Əlavə qiymətləndirmə kriteriyaları:*** | Tədqiqatlardan alınan nəticələrin gigiyenik qiymətləndirilməsi materialın müvafiq yaşa və cinsə görə mövcud gigiyenik, antropoloji və fizioloji normalarla müqayisəsi əsasında həyata keçiriləcəkdir |
| ***Açar sözlər :*** | Hərbi lisey kursantlarının qidalanma statusu, sağlamlıq vəziyyəti, fiziki inkişafı, gigiyenik qiymətləndirmə |
| ***İşin növü və dizaynı:*** | |
| ***Abstract (in english)*** | Given the lack of research on the health status of military high school cadets, but the leading role of nutrition in shaping the health of this population group, which plays an important role in ensuring the country's defense capability, the study of the relationship between their nutritional status and health is the main idea. |
| **Name of study:** | Hygienic characteristics of the relationship between the nutritional status and health of military high school cadets |
| **Backgraund:** | Socio-hygienic and ecological bases of formation of population health |
| **Objective:** | Development of scientific bases of preventive measures to optimize their nutrition and ensure adequate health on the basis of hygienic assessment of the relationship between the nutritional status and health of military lyceum cadets |
| **Material and metods (patient groups and interventions):** | - Cadets of the military lyceum named after J. Nakhchivanski;<br><br>- Questionnaires designed to study the nutrition, physical development, and health status of military lyceum cadets; |

| | |
|---|---|
| | - Information reflecting the morbidity rates of military lyceum cadets;<br><br>- The results of the study of the physical development of military lyceum cadets, the state of the cardiovascular, respiratory, and other functional systems. |
| **Primary outcome:** | Main groups - cadets of the military lyceum named after J. Nakhchivanski,<br>comparison groups - existing normative materials |
| **Secondary outcome:** | Hygienic evaluation of research results will be carried out on the basis of comparison of the material with the existing hygienic, anthropological, and physiological norms according to age and gender. |
| **Key words:** | Nutritional status, health status, physical development, hygienic assessment of military high school cadets |
| **Study type and design:** | practical, observational |